**Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası**

# 15 oktyabr 2008-ci ildə keçiriləcək Azərbaycan Respublikası Prezident seçkisinin Uzunmüddətli Müşahidəsinin nəticələrinə dair

# *ARALIQ HESABAT*

(1 avqust - 10 oktyabr 2008-ci il)

**Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının**

**15 oktyabr 2008-ci ildə keçiriləcək Azərbaycan Respublikası Prezident seçkisinin Uzunmüddətli Müşahidəsinin nəticələrinə dair**

***ARALIQ HESABATI***

(1 avqust - 10 oktyabr 2008-ci il)

# Giriş

«AZƏRBAYCANDA VƏTƏNDAŞ CƏMİYYƏTİNİN İNKİŞAFINA YARDIM ASSOSİASİYASI» (AVCİYA) 2003-cü ildə 10 QHT-nin təşəbbüsü ilə yaranıb.

AVCİYA-nın yaradılmasında əsas məqsəd Assosiasiyaya daxil olan qeyri-hökumət təşkilatlarının və üçüncü sektorun digər nümayəndələrinin fəaliyyətinin əlaqələndirilməsi vasitəsi ilə ölkədə vətəndaş cəmiyyətinin yaradılması prosesinə yardım göstərməkdir. Assosiasiyaya daxil olan QHT-lər ixtisaslaşdıqları sahələrdə mövcud olan problemlərə cəmiyyətin diqqətini cəlb etməyi, vətəndaşların onların həllində iştirakını, bu sahələrdə gedən proseslərin maksimal şəffaflığına nail olmağı öz qarşılarına məqsəd qoyublar. AVCİYA-nın əsas məqsədlərindən biri məhz Assosiasiyaya üzv olan QHT-lərin qüvvəsi ilə müxtəlif sahələrdə mövcud problemlərin üzə çıxarılması, cəmiyyətə çatdırılması və problemlərin həlli üzrə kompleks tədbirlər həyata keçirməkdir.

Assosiasiyanın məqsədlərindən biri də vətəndaş cəmiyyətinin bütün iştirakçıları (hökumət, cəmiyyət, üçüncü sektor və s.) arasında dialoqun yaradılmasına kömək etməkdir. Assosiasiya belə hesab edir ki, təkcə QHT-lərin fəaliyyəti hesabına Azərbaycanda vətəndaş cəmiyyətinin qurulması qeyri-mümkündür. Vətəndaş cəmiyyətinin əsaslarından biri konsensus və qarşılıqlı hörmətdir.

Vətəndaş Cəmiyyətinin qurulmasının ədalətli və şəffaf seçkilərsiz mümkünsüzlüyünü qəbul edərək AVCİYA yarandığı gündən seçki prosesində iştirak etməyə başlayıb. 2004-cü ilin dekabrında AVCİYA «Azərbaycanda bələdiyyə seçkiləri» mövzusunda genişmiqyaslı tədqiqat həyata keçirib. Bələdiyyə seçkiləri tədqiqat obyekti kimi götürülərkən hər bir vətəndaşın özünüidarə sisteminə cəlb edilməsinin ölkədə vətəndaş cəmiyyətinin inkişafı baxımından zəruri olduğu nəzərə alınmışdır. Bu tədqiqat zamanı AVCİYA əhalinin bələdiyyələrdən nə gözlədiyini, yerli özünüidarəetmə qurumlarının fəaliyyətinin effektivliyinin artırılması üçün hansı tədbirlərin həyata keçirilməsinin zəruri olduğunu və digər aspektləri dərindən öyrənmişdi. Bundan əlavə, AVCİYA bütün Azərbaycan ərazisində 300-dən çox yerli və xarici müşahidəçilərin iştirakı ilə seçkilərin monitorinqi prosesini təşkil etmişdir. Bakıda (Nəsimi rayonu) və Şamaxıda yerləşən seçki dairələrində isə «exit poll» (çıxışda sorğu) prinsipi əsasında sosioloji tədqiqat keçirilmişdir.

AVCİYA 2004-cü ilin avqust-dekabr aylarında ölkənin yeni rəhbərinin bir illik fəaliyyəti dövründə yaranmış tendensiyaların müəyyənləşdirilməsi, cəmiyyətin əsas

problemlərinin üzə çıxarılması, onların həlli yollarının axtarılmasına yönəlmiş «İlham Əliyevin 365 günlük prezidentlik fəaliyyəti» mövzusunda ümumrespublika rəy sorğusu keçirmişdir. Bu tədqiqat nəticəsində əhalinin müxtəlif məsələlərə aid rəy və təklifləri öyrənilmiş, cəmiyyəti ən çox narahat edən problemlər müəyyənləşdirilməklə hökumətlə geniş kütlə arasında körpü yaradılmasına cəhdlər edilmiş, tədqiqatın nəticələri və onların əsasında Assosiasiya ekspertlərinin apardığı təhlillər kitab formasında çap olunaraq cəmiyyətə çatdırılmışdır.

Daha sonra, AVCİYA 2005-ci il Parlament seçkilərini, 2006-cı ildə bəzi dairələr üzrə keçirilən təkrar parlament seçkilərini müşahidə edib. Qeyd edək ki, bu seçkilər zamanı AVCİYA ABŞ-ın Mitofski İnternational Exit Poll şirkətiylə birgə exit-poll təşkil etmişdir. AVCİYA 2004 və 2005 seçkiləri ərəfəsində və sonra da ümumrespublika rəy sorğuları keçirərək onu yerli və xarici ictimaiyyətə çatdırmışdır.

AVCİYA 15 oktyabr Prezident seçkiləri ilə bağlı prosesə 2008-ci il yanvar ayından prezident seçkiləri ilə bağlı uzunmüddətli fəaliyyət planının tərtib edilməsi və Seçki Qərargahının yaradılması ilə start verib. Yanvar ayından etibarən AVCİYA Azərbaycanda fəaliyyət göstərən beynəlxalq təşkilatların ofislərində görüşlər keçirməyə başlayıb. Yanvar-oktyabr ayları ərzində AVCİYA nümayəndələri ABŞ-ın Seçki Sistemləri üzrə Beynəlxalq Fondu, ABŞ-ın Milli Demokratiya İnstitutu, ABŞ-ın Respublikaçılar İnstitutu, Counterpat İnternational, Avrasiya Əməkdaşlıq Fondu, Açıq Cəmiyyət İnstitutu – Yardım Fondu, ATƏT və Avropa Şurasının Bakı ofisləri, ATƏT-in uzunmüddətli müşəhidəçi missiyasının rəhbəri ilə görüşüb. ABŞ-ın Respublikaçılar İnstitutu AVCİYA-nın trenerləri üçün treninqlər təşkil edib. ABŞ-ın Seçki Sistemləri üzrə Beynəlxalq Fondu AVCİYA seşki qərargahına seçkilərlə bağlı ədəbiyyat vermişdir.

İyun ayından etibarən AVCİYA özünün 12 regional ofisinin vasitəsiylə yerli müşahidəçilərin səfərbər edilməsi və onlar üçün treninqlərin keçirilməsi prosesini həyata keçirib. Treninqlər 5400 nəfəri əhatə edib. AVCİYA-nın Lənkəran, Xaçmaz, Saatlı və Cəlilabad regional ofislərində ATƏT-in uzunmüddətli müşahidə missiyasının nümayəndələri görüşlər keçirib və müşahidəçilər üçün keçirilən treninqlərdə iştirak ediblər.

Mərkəzi Seçki Komissiyası seçki kampaniyasına rəsmi start verəndən sonra AVCİYA avqust ayının 1-dən etibarən seçkilərin uzunmüddətli müşahidəsinə başlayıb. Bu monitorinqlə Kütləvi İnformasiya Vasitələri, namizədlərin irəli sürülməsi, qeydə alınması, seçici siyahıları, seçki prosesi ilə bağlı qanunpozuntuları, seçki məcəlləsi və seçkilərlə bağlı qanunverici baza, seçki ərəfəsində ölkədəki siyasi mühüt, MSK, DSK və MnSK- ların fəaliyyəti, təşviğat kampaniyası və seçki günü seçki prosesinin müşahidəsi əhatə olunub. KİV-in monitorinqi 7 milli telekanal və 8 qəzet üzərində aparılmışdı.

15 oktyabrda AVCİYA “ELS” müstəqil araşdırmalar mərkəzi ilə birgə 118 dairə 800 məntəqədə Exit Poll və Quick Count tədqiqatları həyata keçirəcək.

AVCİYA nümayəndələri Bolqarıstan, Gürcüstan, Belarus, Moldovada keçirilən seçkilərdə müxtəlif missiya tərkiblərində seçkiləri müşahidə etmişlər. AVCİYA, sıralarında 36 ölkənin nümayəndələrini birləşdirən Seçki Müşahidəçilərin Dünya Şəbəkəsinin (World Network od Election Observers – www. worldelection.net) üzvüdür.

# Ümumi İcmal

Mərkəzi Seçki Komissiyasının 30 iyul 2008-ci il tarixli qərarı ilə Azərbaycan Respublikası Prezidenti seçkiləri 2008-ci ilin 15 oktyabrına təyin edilib.

Fəaliyyətdə olan dövlət başçısı İlham Əliyev də daxil olmaqla MSK 7 nəfərin prezidentliyə namizədliyini qeydə alıb. 21 nəfər prezidentliyə namizəd kimi qeydə alınmaları üçün MSK-ya müraciət edib. Onlardan yalnız 10 nəfəri qanunla müəyyən edilmiş müddətdə qeydiyyat sənədlərini və imza vərəqələrini MSK-ya təqdim ediblər. MSK 3 nəfərin prezidentliyə namizədliyini qeydə alımaqdan imtina edib. Prezidentliyə namizədlərin 6-sı müxalifət partiyalarını təmsil edir

Bir sıra müxalifət partiyaları 15 oktyabr Prezident seçkilərində iştirakdan imtina etmişlər. Bununla belə bir sıra müxalifət partiyalarının 15 oktyabr prezident seçkilərində iştirakdan imtina etməsi seçki mühitinə, seçki fəallığına, ictimai-siyası proseslərə ciddi təsir göstərməmişdir. AVCİYA hesab edir ki, seçkilərdə iştirakdan imtina qərarı yalnız bu partiyaların özlərini seçki marafonundan kənarda qoymasından başqa bir ciddi nəticə verməmiş, seçkilərin azad, demokratik, rəqabət şəraitində keçirilməsinə xələl gətirməmişdir.

Azərbaycan Respublikası Milli Məclisi Venetsiya Komissiyasından, bir sıra yerli və beynəlxaq təşkilatlardan verilən tövsiyyələri nəzərə alaraq "Secki Məcəlləsi"nin 2 iyun 2008 – ci il tarixdə 145 maddəsinə 91 dəyişiklik edıb. Seçki Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər ümumilikdə seçki institutlarının daha səmərəli fəaliyyət göstərməsinə, seçki prosesi ilə bağlı şikayətlərin daha çevik, operativ araşdırılmasına, seçici siyahılarının dəqiqləşdirilməsinə, seçkiləri müşahidə prosesinin asanlaşdırılmasına, seçkilərin daha şəffaf, demokratik şəraitdə keçirilməsinə, seçkilərin monitorinqi, namizədlərin təbliğat-təşviqat, vətəndaşların seçki hüququnun realizəsi imkanlarını yaxşılaşdırmağa xidmət etmişdir.

Seçkiqabağı mühiti siyası sabitlik və əmin-amanlıq şəraiti ilə xaraektirzə olunur. Prezident seçkiləri ərəfəsində və müşahidə dövrü ərzində ölkədə siyası sabitlik və ictimai təhlükəsizliyə təsir göstərə, onu poza biləcək hər hası təsirlər, müdaxilələr və meyllər müşahidə edilməyib. Seçkilərin elan olunması və seçkilərin təşkili ilə bağlı prosedurlar qanunvericiliyə uyğun şəkildə həyata keçirilib. Seçkilərin elan olunması ilə bağlı müvafiq təbliğat fəaliyyəti Mərkəzi Seçki Komissiyası tərəfindən həyata keçirilib. Azərbaycan Respublikası Milli Məclisi tərəfindən 2 iyun 2008 – ci il tarixdə Secki Məcəlləsinə edilmiş əlavə və dəyiışikliklər seçki adminstrasiyasının dafa effektiv fəaliyyət göstərməsi imkanlarını genişləndirmişdir.

Seçici siyahıları MSK nəzdində "Seçkilər" İnformasiya Mərkəzinin internet səhifəsində (www.infocenter.gov.az) yerləşdirilib. Seçicilər bu səhifəyə daxil olaraq öz adlarının seçici sıyahısında olub-olmadığını öyrənmək imkanı əldə ediblər. Adları seçici sıyahısında olmayan vətəndaşlar müvafiq qaydada müraciət etməklə adlarının seçici sıyahısına çox qısa müddətdə daxiı edilməsinə nail olmaq imkanı əldə ediblər. Bu yeni qayda və mexanizmlər əvvəlki seçkilərlə müqayisədə mütərəqqi dəyişikliklər olaraq seçici sıyahılarının dəqiqiləşdirilməsi və yoxlanmasında şəffaflığa, demokratikliyə nail olmağa imkan yaratmışdır. Bu dəyişikliklər eyni zamanda seçici sıyahılarının dəqiqiləşdirilməsi və yoxlanmasında seçki adminstrasiyasının çevik, səmərəli fəaliyyət göstərməsi, əvvəllər müşahidə olunan problemlərin və bürokratik əngəllərin aradan qaldırılması istiqamətində mühüm naliyyət olmuşdur.

Qanunvericiliyə müvafiq olaraq prezidentlyiə namizədlərin təşviqat və təbliğat mərhələsi 17 sentyabr 2008-ci il tarixdə başlamışdır. Prezidentlyiə namizədlərin seçki

kampaniyasının təşviqat və təbliğat mərhələsi qanunvericiliyə uyğun olaraq 28 gün müddətində müəyyənləşdirilmişdir. Seçki kampaniyasının ümumən sakit və dinc mühitdə keçdiyi müşahidə olunur. Seçkiqabağı təşviqat və təbliğat kampaniyası müddətində prezidentliyə namizədlər ciddi maneə və əngəllərlə üzləşməmişlər. Qanunvericiliyə uyğun olaraq İTV-də prezidentliyə namizədlər üçün pulsuz efir vaxtı ayrılmışdır. Namizədlər pulsuz efir vaxtından tam maneəsiz şəkildə istifadə etmişlər. Namizədlərin plakatlarının və təşviqat materiallarının yerləşdirilməsi ilə bağlı xüsusi löhvələr ayrılmışdır. Namizədlərin heç biri təşviqat materiallarının yerləşdirilməsi, yayılması ilə bağlı qanunsuz müdaxilələr, əngəllər, maneələrlə üzləşməmişlər. Prezidentliyə namizədlərin Seçki qərargahları tərəfindən bu barədə şikayətlər edilməmişdir.

Seçki kampaniyası dövründə sərbəst toplaşmaq hüquqlarının təmin edilməsi və həyata keçirilməsi ilə bağlı ciddi problemlər müşahidə olunmamışdır. Namizədlərin seçki qərargahları tərəfindən keçirilən kütləvi aksiyalar zamanı sərbəst toplaşmaq hüquqlarının həyata keçirilməsini ilə bağlı problemlər qeydə alınmamışdır.

Azərbaycan Respublikasının bütün ərazisində müşahidə aparılmasına dair ərizələr Mərkəzi Seçki Komissiyasına səsvermə gününə 10 gün qalanadək, seçki dairələrinin ərazisində müşahidənin aparılmasına dair ərizələr isə müvafiq dairə seçki komissiyalarına səsvermə gününə 5 gün qalanadək təqdim edilməlidir.

MSK prezident seçkisi ilə bağlı, müşahidəçilər üçün 30 min tirajla yaddaş kitabçası çap etdirib. Müşahidəçilərin qeydiyyata alınması ilə bağlı ciddi maneələr və əngəllər müşahidə olunmayıb.

# Əsas müddəalar

**1. Seçki qanunvericiliyinin təkmilləşdirilməsi**

Azərbaycan Respublikası Milli Məclisi Venetsiya Komissiyasından, bir sıra yerli və beynəlxaq təşkilatlardan verilən tövsiyyələri nəzərə alaraq 2 iyun 2008 – ci il tarixdə “Secki Məcəlləsi”nin 145 maddəsinə 91 dəyişiklik edıb. Dəyişikliyə əsasən, seçki kampaniyası müddəti dörd aydan 75 günə endirilib, namizədlərin pul depoziti hesabına qeydiyata alınması ləğv edilib, namizədlərin qeydiyyata alınması üçün tələb olunan imzalar 45 mindən 40 minə endirilib, dövlətdən maliyyələşən televiziya (AzTV), radio və qəzetlərdə namizdlərin pullu və pulsuz təbliğat aparması qadağan olunub, prezidentliyə namizədlərin seçki fondu bir milyon manatdan on milyon manata, deputatlığa namizədlər üçünsə, 85 min manatdan 500 min manata qədər artırılıb, hərbi hissələrdə seçki məntəqələrinin yaradılması ləğv edilib, adı seçici siyahısına düşməyən şəxslərin seçki günü siyahıya daxil edilməsi səlahiyyəti məhkəmələrdən alınaraq, məntəqə seçki komissiyasına verilib, seçkilərdə «exit-poll» keçirən təşkilatların Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçməsi tələbi irəli sürülüb.

Seçkilərin gedişinə qanunsuz müdaxilənin yolverilməzliyi, seçki bülletenlərinin zərflərə qoyulmaması, müşahidəçiləri digər şəxslərdən fərqləndirən vəsiqələrin verilməsi, seçici siyahılarında seçicilərin ünvanlarının göstərilməsi, seçicilərin barmaqlarının mürəkkəblə işarələnməsi ilə bağlı Venesiya Komissiyasının təklifləri Seçki Məcəlləsinə daxil edilib. Venesiya Komissiyasının Azərbaycanın seçki komissiyalarının tərkibinin dəyişdirilməsi ilə bağlı təklifi qəbul olunmayıb.

Azərbaycan Respublikası Milli Məclisində Secki Məcəlləsinə edilmiş son əlavə və dəyişikliklər:

Seçkilərin gedişinə qanunsuz müdaxilənin yolverilməzliyi barədə ayrıca müddəanın məcəlləyə daxil edilib. Cinayət Məcəlləsində təsbit olunmuş bu müddəanın Seçki Məcəlləsində bir daha əks etdirilməsi seçkilərin gedişinə hər hansı qanunsuz müdaxilənin qarşısını almaq üçün mühüm çəkindirici əhəmiyyətə malikdir;

Qanunda "xarici dövlətlər qarşısında öhdəliklər olan" ifadəsi açıqlanır. Bununla Konstitusiya Məhkəməsinin 2003-cü il 1 avqust tarixli qərarında verilən təfsir dəqiqləşdirilir və üstəlik, buraya zaman elementi (5 il) əlavə edilir;

Qohumluq əlaqələrinə görə səlahiyyətlərinə müvəqqəti xitam verilmiş komissiya üzvlərinin səlahiyyəti seçkilərin nəticələri rəsmən elan olunduqdan sonra bərpa olunması barədə müddəa əlavə edilib. Bununla da seçki komissiyalarının daimi əsasda fəaliyyət göstərməsinə mane ola biləcək məqam aradan qaldırılır;

Mərkəzi Seçki Komissiyasına "exit-poll" keçirən təşkilatların akkreditasiyasını həyata keçirmək səlahiyyəti verilir;

Xüsusi rejimli hərbi hissələrdə seçki məntəqələri yalnız MSK-nın müəyyən etdiyi hallarda yaradıla bilər (əvvəllər bu hallar Müdafiə Nazirliyi tərəfindən müəyyən olunurdu). Üstəlik, MSK belə bir qərarı səsvermə gününə ən azı 5 gün qalmış qəbul edə bilər;

Dəyişikliyə görə, daha seçki bülletenləri üçün zərflərdən istifadə olunmayacaq. Ötən seçkilərin təcrübəsindən irəli gələn bu dəyişiklik səsvermə protokollarını sadələşdirmək və səslərin təkrar hesablanmasını asanlaşdırmaq məqsədilə edilib;

Bundan sonra seçici səsvermə gününə müəyyən müddət qalmış və eləcə də səsvermə günü seçici siyahısına əvvəllər olduğu kimi məhkəmə qərarı əsasında deyil, yalnız məntəqə seçki komissiyası tərəfindən əlavə edilə bilər;

Seçki məntəqələrindəki məlumat lövhələrində açıq yerləşdirilən seçici siyahılarında seçicilərin ünvanlarının göstərilməməsi barədə olan müddəa məcəllədən çıxarılıb. Beləliklə, seçicilərin ünvanları təkcə İnternetdə deyil, həm də məlumat stendlərində birbaşa göstəriləcəkdir;

Seçkiqabağı təşviqat materiallarının otaqlardan başqa binalarda, digər obyektlərdə yerləşdirilməsi qadağandır. Bu iri şəhərlərdə, xüsusən Bakı şəhərində seçkilərdən sonra binalara yapışdırılmış seçkiqabağı təşviqat materiallarının qopardılması üçün ayrılmalı olan xərclərin qarşısını almaq məqsədini güdür;

Seçicilərin barmaqlarının mürəkkəblə işarələnməsi barədə Prezidentin ötən parlament seçkilərindən əvvəl öz sərəncamı ilə MSK-ya verdiyi tövsiyə Məcəlləyə daxil edilib;

Əvvəl seçkilərin ilkin nəticələri səsvermə günündən başlayaraq ən geci 2 gün müddətində MSK tərəfindən dərc edilirdi. Dəyişikliyə görə seçkilərin ilkin nəticələri dairə seçki komissiyası tərəfindən səsvermənin nəticələrinə dair protokollar MSK-ya təqdim edildikdən dərhal sonra dərc edilməlidir. Eyni zamanda, bu "dərhallıq" tələbi (əvvəlki 24 saatdan gec olmayarağın əvəzinə) dairələr üzrə nəticələrin MSK-ya çatdırılmasına da şamil edilmişdir;

Prezidentin sərəncamına uyğun olaraq, "şərti maliyyə vahidi" ifadəsi məcəllədən çıxarılır və bütün "şərti maliyyə vahidinin misli" ifadələri manatla göstərilmiş konkret məbləğlərlə əvəz olunur. Eyni zamanda həm prezident, həm parlament seçkiləri zamanı namizədlərin seçki fondunun məbləğinin yuxarı həddi bir neçə dəfə artırılıb (Prezidentliyə namizəd yuxarı hədd 10.000.000 manat, parlament deputatlığına namizəd 500.000 manat);

Qanunda olan bir sıra boşluqlar doldurulub: İstintaq zamanı barələrində həbs qəti imkan tədbiri seçilən və ya inzibati qaydada saxlanılan vətəndaşların seçici siyahısına daxil edilməsi qaydası indiyə qədər tənzimlənməmişdi. İndi bu məsələ həllin tapıb;

Hərbi hissələrin ərazilərində yaradılan seçki məntəqələri üzrə seçicilərin siyahılarının dəqiqləşdirilməsi qaydası göstərilmişdi, lakin belə bir qayda istintaq təcridxanalarının və cəzaçəkmə müəssisələrinin ərazilərində yaradılan seçki məntəqələri üçün müəyyən olunmamışdı. İndi bu məsələ də həllini tapdı;

2003-cü ildə qəbul olunmuş Seçki Məcəlləsinin 8-ci maddəsinə görə, seçkilər səsvermə gününə azı 120 gün qalmış elan edilir. Hazırda bu müddət 75 gün oldu. Başqa sözlə desək, bütövlükdə seçki prosesi 4 ay müddətinə nəzərdə tutulur. Gürcüstanın Seçki Məcəlləsində 60 gün, Rumıniyanın "Prezident seçkiləri haqqında" qanununda 45 gün, Macarıstanın "Seçkilər proseduru haqqında" qanununda 72 gün, Rusiya və Qazaxıstan kimi ərazi və əhalisinə görə böyük dövlətlərdə 90 gün nəzərdə tutulmuşdur.

Dövlət televiziyasında təşviqatın qadağan olunması və təşviqatın İctimai televiziyada aparılması nəzərdə tutulmuşdur.

Depozit Seçki Məcəlləsindən çıxarılmışdır.

Seçkilərin monitorinqini nisbətən asanlaşdıran dəyişiklər aşağıdakılardır:

42.2.3, 42.2.7, 42.3.1, 103.3, 104.10, 106.2, 106.7, 107.4 və 108.3 maddələrə dəyişiklik edilərək bu maddədələrdə "seçki bülletenlərinin qoyulması üçün zərflər" sözləri çıxarılmış;

25.2.23-cü maddəyə MSK "exit-poll keçirən təşkilatların akkreditasiyasını həyata keçirir, həmin təşkilatların akkreditasiyadan keçmə qaydalarını müəyyən edir;" sözləri əlavə olunmuş;

72.2-ci maddədə "vəsiqə" sözü "lövhəcik" sözü ilə əvəz edilmiş;

102.1 - ci maddə "Məntəqə seçki komissiyası səsvermə günü seçki bülletenlərini alarkən seçicinin barmağının işarələnməsini zərərsiz, gözə görünməyən mayedən istifadə etməklə həyata keçirir" kimi yeni redaksiyada verilmiş;

102.2 – ci maddəyə "Seçicinin sol əlinin baş barmağı çiləmə üsulu ilə işarələnir" sözləri əlavə edilmiş;

102.3 – ci maddəyə " Seçicinin barmağının əvvəl seçki bülletenini alarkən işarələnməsini müəyyən etmək üçün ultrabənövşəyi lampadan istifadə edilir" sözləri əlavə edilmiş;

"104.6. Məntəqə seçki komissiyasının bir üzvü seçki məntəqəsinin girişində dayanaraq məntəqəyə daxil olan vətəndaşların seçici vəsiqələrini, şəxsiyyət vəsiqələrini və ya şəxsiyyəti təsdiq edən digər sənədləri, onun sol əlinin baş barmağının dırnaq və dərisinin bir hissəsinin bu Məcəllənin 102-ci maddəsində nəzərdə tutulan maye ilə əvvəl işarələndiyini yoxlayır və içəri daxil olmağa icazə verir. Bu cür işarələnmə müəyyən edilərsə, seçiciyə seçki bülleteni verilmir. Məntəqə seçki komissiyasının digər üzvü seçicinin adının seçici siyahısında olduğunu yoxlayır və ona seçki bülleteni verir. Barmağının maye ilə işarələnməsindən imtina edən seçiciyə seçki bülleteni verilməyəcəyi izah edilir. Seçici razılaşmadıqda ondan seçki məntəqəsini tərk etmək tələb edilməlidir. Bu barədə seçici siyahısında "işarələnmədən imtina etdi" qeydi aparılır. Seçici razılaşarsa, seçicinin sol əlinin baş barmağı işarələnir" cümlələri əlavə edilmişdir;

106.2-ci maddənin 4-cü cümləsi "Daşınan seçki qutusu üzrə səslər hesablanarkən bülletenlərin ümumi sayı verilmiş ərizələrin sayından (bülleten alan seçicilərin ümumi sayından) çox olarsa, daşınan seçki qutusundakı bütün səslər məntəqə seçki komissiyasının qərarı ilə etibarsız sayılır" kimi yeni redaksiyada ifadə edilmişdir.

Seçki Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər seçki dəyişikliklər ümumilikdə seçki institutlarının daha səmərəli fəaliyyət göstərməsinə, seçki prosesi ilə bağlı şikayətlərin daha çevik, operativ araşdırılmasına, seçici siyahılarının dəqiqləşdirilməsinə, seçkiləri müşahidə prosesinin asanlaşdırılmasına, seçkilərin daha şəffaf, demokratik şəraitdə keçirilməsinə, seçkilərin monitorinqi, namizədlərin təbliğat-təşviqat, vətəndaşların seçki hüququnun realizəsi imkanlarını yaxşılaşdırmağa xidmət etmişdir. Seçki Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər ümumilikdə pozitiv xarakterli olub seçki qanunvericiliyinin daha da demokratilkləşməsini, standartlar və beynəlxalq təcrübənin nəzərə alınaraq tətbiq olunmasını, seçki qanunvericiliyinin tətbiqi praktikasının yaxşılaşdırılmasını şərtləndirmişdir. Seçki Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər daha çox praktik xarakteri ilə seçilir ki, bu da öz növbəsində ümumilikdə seçki adminstrasiyasının fəaliyyətinin daha yaxşı təşkil olunmasına, seçkilərin daha effektiv idarə olunmasına, şəffaflığın və hesabtlılıq standartlarının daha da yüksəldilməsinə xidmət edir. Bu əlavə və dəyişikliklər ümumilikdə Seçki Məcəlləsinə daha demokratik məzmun verilməsində çox böyük və əhəmiyyətli nailiyyət kimi qiymətləndirilə bilər.

# Seçkiqabağı mühit

Seçkiqabağı mühiti siyası sabitlik və ictimai təhlükəsizlik şəraiti ilə xaraektirzə olunur. Prezident seçkiləri ərəfəsində və müşahidə dövrü ərzində ölkədə siyası sabitlik və əmin-amanlığa təsir göstərə, poza biləcək hər hası təsirlər, müdaxilələr və meyllər müşahidə edilməyib. Seçkilərin elan olunması və seçkilərin təşkili ilə bağlı presedurlar qanunvericiliyə uyğun şəkildə həyata keçirilib. Seçkilərin elan olunması ilə bağlı müvafiq təbliğat fəaliyyəti Mərkəzi Seçki Komissiyası tərəfindən effektiv həyata keçirilib. Seçkilərə hazırlıqla bağlı fəaliyyət MSK tərəfindən qanunvericiliyə uyğun olaraq yerinə

yetirilmişdir. Ümumilikdə seçkilərə hazırlıqla bağlı ötən illərlə müqayisədə müsbət irəliləyişlər müşahədə olunmaqdadır. Bu irəliləyişlər dairə və məntəqə seçki komissiyalarında iş şəraitinin yaxşılaşdırılması, onların maddi-texniki təminatı ilə bağlı problemlərin həlli, seçki komissiyası üzvlərinin bilik və bacarıqlarının artırılması istiqamətində görülmüş işlərlə şərtlənir.

Seçkiqabağı mühitin demokratikliyi, söz və mətbuat azdlığının təmin olunması, siyasi qüvvələrin fəaliyyəti üçün münbit şəraitin bərqərar olması ilə seçilmişdir. Belə ki, siyasl qüvvlərin, KİV-in fəaliyyəti üçün qanunvericiliyə müvafiq olaraq bütün zəruri şərtlər yaradılmışdır. Siyası qüvvələrin, KİV-in normal fəlaiyyət göstərməsinə maneə ola biləcək, siyası qüvvələrin seçkiyə hazırlığına əngəl olacaq, pozacaq hər hansı hadisə, meyl və təsirlər qeydə alınmamışdır.

MSK tərəfindən 7 nəfər prezidentliyə namizəd kimi qeydə alınmışdır. Bir sıra müxalifət partiyaları 15 oktyabr prezident seçkilərində iştirakdan imtina etmişlər. Bununla belə bir sıra müxalifət partiyalarının 15 oktyabr prezident seçkilərində iştirakdan imtina etməsi seçki mühitinə, seçki fəallığına, ictimai-siyası proseslərə ciddi təsir göstərməmişdir. AVCİYA hesab edir ki, boykot qərarı yalnız bu partiyaların özlərini seçki marafonundan kənarda qoymasından başqa bir ciddi nəticə doğurmamış, seçkilərin azad, demokratik, rəqabət şəraitində keçirilməsinə xələl gətirməmişdir.

Ölkədə normal seçki ab-havası müşahidə olunur, seçkilərə maraq kifayət qədər yüksəkdir. AVCİYA və digər təşkilatlar tərəfindən aparılan müşahidələr, keçirilən tədbirlər, KİV-in monitorinqi vətəndaşların, siyası qüvvələrin, mass-medianın, vətəndaş cəmiyyəti institutları prezident seçkilərinə, seçki marafonuna, namizədlərin seçki kampanıyasına böyük maraq və diqqət göstərirlər.

Sonda qeyd etmək olar ki, Azərbaycanda şəffaf, ədalətli, demokratik, ədalətli seçkilər keçirilməsi üçün əlverişli, münbit seçkiqabağı mühit mövcuddur. Siaysi qüvvələrin, KİV-in, vətəndaş cəmiyyəti institutlarının normal fəaliyyəti üçün hər hansı əngəllər, müdaxilələr, meyllər müşahidə edilməmiş, siyasi qüvvələr üçün bərabər imkanlar təmin edilmişdir.

# Seçki admistrasiasının fəaliyyəti

Azərbaycan Respublikası Milli Məclisi tərəfindən 2 iyun 2008 – ci il tarixdə Secki Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər seçki adminstrasiyasının daha effektiv fəaliyyət göstərməsi imkanlarını genişləndirmişdir. Belə ki, Seçkilərin gedişinə qanunsuz müdaxilənin yolverilməzliyi barədə ayrıca müddəa məcəlləyə daxil edilib. Cinayət Məcəlləsində təsbit olunmuş bu müddəanın Seçki Məcəlləsində bir daha əks etdirilməsi seçkilərin gedişinə və seçki komissiyalarının fəaliyyətinə hər hansı qanunsuz müdaxilənin qarşısını almaq üçün mühüm çəkindirici əhəmiyyətə malikdir. Eyni zamanda qohumluq əlaqələrinə görə səlahiyyətlərinə müvəqqəti xitam verilmiş komissiya üzvlərinin səlahiyyəti seçkilərin nəticələri rəsmən elan olunduqdan sonra bərpa olunması barədə müddəa əlavə edilib. Bununla da seçki komissiyalarının daimi əsasda fəaliyyət göstərməsinə mane ola biləcək məqam aradan qaldırılıb.

Seçkilərə hazırlıq prosesi çərçivəsində seçicilərin siyahıları tərtib edilmiş və dəqiqləşdirilmiş, dairə seçki komssiyalarında katibliklər yaradılmış və fəaliyyətə başlamış, aşağı seçki komissiyalarının iş şəraiti yaxşılaşıdırlımış, onların əksəriyyəti üçün yeni binalar tikilmiş, seçicilər, aşağı seçki komissiyalarının üzvləri və KİV nümayəndələri üçün genişmiqyaslı maarifləndirmə proqramı həyata keçirilmiş, beynəlxalq qurumlarla birgə layihələr gerçəkləşdirilmiş, Seçki Məcəlləsinin “Azərbaycan Respublikasının Seçki Məcəlləsinə dəyişikliklər və əlavələr haqqında” Qanun nəzərə alınmaqla yeni variantı nəşrə hazırlanmış və çap olunmuş, seçkilərin hazırlanmasını həyata keçirmək üçün zəruri olan normativ-hüquqi aktlar bazası təkmilləşdirilmiş,

normativ xarakterli aktlar qəbul edilmiş və ictimailəşdirilmiş, həmin sənədlərdən ibarət toplu hazırlanmış və çap edilmiş, seçki komissiyalarının fəaliyyəti, tərkibi, seçici siyahıları barədə məlumatlar və seçki sənədləri MSK-nın rəsmi internet səhifəsində yerləşdirilmişdir.

MSK-nın iclasları KİV nümayəndələri üçün açıq keçirilib. Bu da bütövlükdə seçki adminstrasiyasının fəaliyyətində şəffaflıq və hesabatlılığn artırılmasına xidmət edən addım kimi göstərməlidir.

MSK-nın nəzdində 24 saat ərzində Müstəqil Mətbuat Mərkəzi fəaliyət göstərəcəkdir. Bu da KİV-in seçki prosesi ilə bağlı tam dolğun məlumat almaq imkanlarını genişləndirəcəkdir.

MSK-nın “Seçkilər” İnformasiya Mərkəzində isə seçki günü KİV nümayəndələri səsvermənin gedişi və nəticələr barədə onlayn rejimdə operativ məlumat alamaq imkanı əldə edəcəklər.

MSK-nın yanında KİV-də prezidentliyə namizədlərin seçki kampanıyasını işıqlandırılmasına nəzarət etmək məqsədilə jurnalistlərdən və MSK üzvlərindəm ibarət Mətbuat Qrupu yaradılmışdır. Mətbuat Qrupunun yaradılması və faliyyəti KİV-də prezidentliyə namizədlərin seçki kampanıyasının işıqlandırılması zamanı qanunvericiliyin tələblərinə əməl edilməsinin təmin olunması baxımından əhəmiyyətli addım kimi dəyərləndirilməlidir.

MSK tərəfindən seçki komissiyası üzvlərinin peşəkarlığının artırılması məqsədilə treninqlər keçirilmişdir. Bu da öz növbəsində bütövlükdə seçki adminstrasiasının daha səmərəli fəaliyyətinə yol açmışdır.

Seçki komissiyalarına, seçki komissiyası üzvlərinə öz hüquq və vəzifələrini yerinə yetirməsi ilə bağlı hər hansı müdaxilə, təsir və yaxud təzyiq faktları qeydə alınmamışdır.

Prezidentliyə namizədlərin səlahiyyətli namizədlərinin MSK-nın iclaslarında iştirakı ilə bağlı heç bir problem müşahidə edilməmişdir. Qanunvericiliyin tələblərinə uyğun olaraq onların MSK-nın iclaslarında iştirak etmələri üçün bütün şərait yaradılmışdır.

Bütün bunalrı nəzərə alaraq qeyd etmək olar ki, seçkilərə hazırlıq və seçkilərin keçirilməsi ilə seçki adminstrasiyasının fəaliyyəti qənaətbəxş sayıla bilər. Seçki komissiayasıları, seçki komisiyaıarının üzvlərinin normal fəaliyyəti üçün bütün zəruri addımlar atılmış, əlverişli mühit yaradılmışdır. Seçki adminstrasiyası şəffaf, demokratik, azad, ədalətli seçkilərin keçirilməsi vəzifəsinin öhdəsindən gəlmək iqtidarındadır.

## Seçici sıyahılarının vəziyyəti

Seçki Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər, MSK tərəfindən atılmış bir sıra addımlar seçici sıyahılarının dəqiqləşdirilməsi, seçicilərin öz adlarını seçici sıyahalarında yoxlamaq mexanizmlərin təkmilləşdirilməsinə imkan vermişdir:

Seçki Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərdən sonra seçici səsvermə gününə müəyyən müddət qalmış və eləcə də səsvermə günü seçici siyahısına əvvəllər olduğu kimi məhkəmə qərarı əsasında deyil, yalnız məntəqə seçki komissiyası tərəfindən əlavə edilə bilər;

Seçki məntəqələrindəki məlumat lövhələrində açıq yerləşdirilən seçici siyahılarında seçicilərin ünvanlarının göstərilməməsi barədə olan müddəa Məcəllədən çıxarılıb. Beləliklə, seçicilərin ünvanları təkcə İnternetdə deyil, həm də məlumat stendlərində birbaşa göstəriləcəkdir;

Hərbi hissələrin ərazilərində yaradılan seçki məntəqələri üzrə seçicilərin siyahılarının dəqiqləşdirilməsi qaydası göstərilmişdi, lakin belə bir qayda istintaq

təcridxanalarının və cəzaçəkmə müəssisələrinin ərazilərində yaradılan seçki məntəqələri üçün müəyyən olunmamışdı. İndi bu məsələ də həllini tapıb;

Seçici siyahıları MSK nəzdində "Seçkilər" İnformasiya Mərkəzinin internet səhifəsində (www.infocenter.gov.az) yerləşdirilib. Seçicilər bu səhifəyə daxil olaraq öz adlarının seçici sıyahısında olub-olmadığını öyrənmək imkanı əldə ediblər. Adları seçici sıyahısında olmayan vətəndaşlar müvafiq qaydada müraciət etməklə adlarının seçici sıyahısına daxiı edilməsinə nail olmaq imkanı əldə ediblər.

Bu yeni qayda və mexanizmlər əvvəlki seçkilərlə müqayisədə mütərəqqi dəyişikliklər olaraq seçici sıyahılarının dəqiqiləşdirilməsi və yoxlanmasında tam şəffaflığa, demokratikliyə nail olmağa imkan yaratmışdır. Bu dəyişikliklər eyni zamanda seçici sıyahılarının dəqiqiləşdirilməsi və yoxlanmasında seçki adminstrasiyasının çevik, səmərəli fəaliyyət göstərməsi, əvvəllər müşahidə olunan problemlərin və bürokratik əngəllərin aradan qaldırılması istiqamətində mühüm naliyyət olmuşdur.

# Namizədlərin qeydə alınması

21 nəfər prezidentliyə namizəd kimi qeydə alınmaları üçün MSK-ya müraciət edib. Onlardan yalnız 10 nəfəri qanunla müəyyənləşmiş müddətdə qeydiyyat sənədlərini və imza vərəqələrini MSK-ya təqdim ediblər. MSK 7 nəfərin prezidentliyə namizədliyini qeydə almışdır.

Prezidentliyə namzidlərin irəli sürülməsi və imzatoplama kampaniyası sakit və dinc mühitdə keçmişdir. Prezidentliyə namizədlərin imzatoplama kampanıyası zamanı onaların normal fəaliyyətinə ciddi şəkildə mane ola biləcək, onların bu istiqamətdə fəaliyyətinin ciddi şəkildə məhdudlaşdırılmasına səbəb ola biləcək hər hansı təsir, müdaxilə və təzyiq faktları qeydə alınmamışdır. Namizədlərin dəstək imzalrı toplamaları üçün onların hər biri bərabər imkanlara malik olmuşlar.

"Yaşıllar" Hərəkatının lideri Mais Gülalıyev prezidentliyə namizədliyinin qeydiyyatı prosesində qanun pozuntusuna yol verildiyini iddia edərək Bakı Apellyasiya Məhkəməsinə şikayət edib. Belə ki, MSK-nın 11 sentyabr 2008-ci ildə kecirilən iclasında M.Guləliyevin namizədliyinin qeydə alınmasından imtina edilib. MSK bunu seçici imzalarının sayının kifayət qədər olmaması, əmlakı və gəlirləri barədə yanlış məlumat verilməsi ilə əsaslandırıb. Mais Gülalıyev isə iddia edib ki, əvvələcə MSK-da onun doldurulmuş imza vərəqələrini qəbul etməkdən imtina ediblər. Onun numayəndəsinin israr etməsindən sonra imza vərəqələri və digər sənədləri MSK-ya qəbul edilib. İmza vərəqələrinin yoxlanılması prosesində M.Guləliyevin numayəndəsinin iştirakına icazə verilməyib və namizədin imza vərəqələri onun numayəndəsinin iştirakı olmadan yoxlanılıb. Bakı Apelyasiya Məhkəməsi M. Guləliyevin şikayətini təmin etməyib.

# Seçki kampaniyası

Qanunvericiliyə müvafiq olaraq prezidentlyiə namizədlərin təşviqat və təbliğat mərhələsi 17 sentyabr 2008-ci il tarixdə başlamışdır. Prezidentlyiə namizədlərin təşviqat və təbliğat mərhələsi qanunvericiliyə uyğun olaraq 28 gün müddətində müəyyənləşdirilmişdir. Seçki kampaniyasının ümumən sakit və dinc mühitdə keçdiyi müşahidə olunur.

Namizədlərin seçki kampanıyaları əsasən mitinqlər və konfrans zallarında, iclas salonlarında görüşlər formasında həyata keçirilmişdir. Namizədlərdən 2 nəfəri öz seçki kampaniyalarını informasiya texnologiyalrından, seçicilərlə onalrın mənzillərində görüşlər keçirməklə (qapıdan-qapıya təbliğat) həyata keçirməyə üstünlük vermişlər.

AVCİYA tərəfindən 2008-ci il prezident seçkiləri kampaniyası dövründə sərbəst toplaşmaq hüquqlarının təmin edilməsinin və həyata keçirilməsinin monitorinqi (17

sentyabr – 10 oktyabr) həyata keçirilmişdir. Monitorinq çərçivəsində prezidentliyə namizədlərin seçki qərargahlarının təşkil etdiyi mitinqlər və konfrans zallarında, iclas salonlarında görüşləri müşahidə ediblər, prezidentliyə namizədlərin seçki qərargahlarından məlumatların toplanmasını, prezidentliyə namizədlər, onalrın seçki qərargahlarının nümayəndələri, namizədlərin vəkilləri ilə görüşlərin keçiriblər, eyni zamnda KİV-in monitorinqi həyata keçirilib.

Ümumilikdə monitorinq dövründə Prezidentliyə namizədlərin Seçki qərargahları tərəfindən 515-dən çox yığıncaq (mitinq) keçirilmişdir. Prezidentliyə namizədlərin seçicilərlə görüşlər, yığıncaqlar, mitinqlər keçirmələri ilə bağlı ciddi manelərlə üzləşməsi halları qeydə alınmamışdır.

Prezidentliyə namizədlərin Seçki qərargahlarının seçicilərlə görüşlər, yığıncaqlar, mitinqlər keçirilməsi üçün yerli icra hakimiyyəti oraqnları müvafiq yerlər ayırmışlar.

Bununla belə Müxalifətin Əməkdaşlıq Mərkəzinin şəhərin mərkəzi meydanlarının birində mitinq keçirmək barədə müraciəti Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən təmin edilməmişdir. Müxalifətin Əməkdaşlıq Mərkəzinə, Müsavat Partiyasına şəhər kənarında Bibiheybət qəsəbəsində mitiniq keçirilməsi təklif olunub. Lakin Müxalifətin Əməkdaşlıq Mərkəzi təklif olunan yerdə mitinq keçirməkdən imtina etmişdir.

BAXCP-nin prezidentliyə namizədi Qudrət Həsənquliyevin Seçki qərargahından verilən məlumata görə Lənkəranda seçicilərlə yığıncaq keçirilərkən, yığıncaq keçirilməsi üçün yer şəhərdən kənarda müəyyənləşdirilmişdir. Yığıncağın keçirilməsi üçün yer yararsız vəziyyətdə olmuş, tədbirdə iştirak etmək üçün gələnlərə maneəçilik yaradılmışdır.

BAXCP-nin prezidentliyə namizədi Qudrət Həsənquliyevin Seçki qərargahının Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən kütləvi aksiyaların keçirilməsi üçün müəyyənləşdirilmiş yerlərdən birində mitinq keçirilməsi üçün müraciətinə cavab oalaraq aksiyanın başqa yerdə keçirilməsi təklif edilmişdir. Lakin prezidentliyə namizədin məsələyə müdaxilsə və müzakirələrdən sonra “Sərbəst toplaşmaq haqqında” Qanuna və Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq göstərilən yerdə mitinq keçirilməsinə icazə verilmişdir.

Monitorinq göstərmişdir ki, prezidentliyə namizədlər seçkiqabağı təşviqat və təbliğat kampaniyası müddətində ciddi maneə və əngəllrlə üzləşməmişlər. Qanunvericiliyə uyğun olaraq İTV-də prezidentliyə namizədlər üçün pulsuz efir vaxtı ayrılmışdır. Namizədlər pulsuz efir vaxtından tam maneəsiz şəkildə istifadə etmişlər. Namizədlərin plakatlarının və təşviqat materiallarının yerləşdirilməsi ilə bağlı xüsüsi löhvələr ayrılmışdır. Namizədlərin heç biri təşviqat materiallarının yerləşdirilməsi, yayılması ilə bağlı qanunsuz müdaxilələr, əngəllər, maneələrlə üzləşməmişlər.

Qanunvericiliyə uyğun olaraq namizədlərin seçicilərlə görüşlər, yığıncaqlar, mitinqlər, küçə yürüşləri keçirilməsi üçün xüsusi yerlər ayrılmış və bu barədə məlumat verilmişdir. Seçki kampaniyası dövründə sərbəst toplaşmaq hüquqlarının təmin edilməsinin və həyata keçirilməsini ilə bağlı əsasən ciddi problemlər müşahidə olunmamışdır. Namizədləruin seçki qərargahları tərəfindən keçiriləm kütləvi aksiyalar zamanı sərbəst toplaşmaq hüquqlarının həyata keçirilməsi ilə bağlı problemlər qeydə alınmamışdır.

# Seçkilərin müşahidə edilməsi

Azərbaycan Respublikasının bütün ərazisində müşahidə aparılmasına dair ərizələr Mərkəzi Seçki Komissiyasına səsvermə gününə 10 gün qalanadək, seçki dairələrinin ərazisində müşahidənin aparılmasına dair ərizələr isə müvafiq dairə seçki

komissiyalarına səsvermə gününə 5 gün qalanadək təqdim edilməlidir. 26 sentyabra olan məlumata görə, ümumilikdə 25 023 nəfər şəxs müşahidəçi statusu almışdır. Həmin müşahidəçilərin 15 087 nəfəri siyasi partiyalar, 7626 nəfəri isə qeyri-hökumət təşkilatları tərəfindən təqdim edilmişlər. 2310 nəfər öz təşəbbüsü ilə müşahidəçi qismində qeydiyyatdan keçmişlər. Azərbaycanın Mərkəzi Seçki Komissiyası (MSK) prezident seçkisi ilə bağlı, müşahidəçilər üçün 30 min tirajla yaddaş kitabçası çap etdirib. Müşahidəçilərin qeydiyyata alınması ilə bağlı ciddi maneələr və əngəllər müşahidə olunmayıb. AVCİYA-nın 5148 müşahidəçisi qeydə alınıb. AVCİYA 118 dairə üzrə 800 məntəqədə ekzit-poll keçirəcək.

# Nəticələr və tövsiyyələr

AVCİYA 15 oktyabrda keçiriləcək Azərbaycan Respublikasının Prezidenti seçkisinin müşahidəsinin ilkin mərhələsi ilə bağlı aşağıdakı nəticələri qeyd edir:

• Seçki Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər ümumilikdə pozitiv xarakterli olub seçki qanunvericiliyinin daha da demokratilkləşməsini, qabaqcıl standartlarının və beynəlxalq təcrübənin nəzərə alınaraq tətbiq olunmasını, seçki qanunvericiliyinin tətbiqi praktikasının yaxşılaşdırılmasını şərtləndirmişdir. Seçki Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər daha çox praktik xarakteri ilə seçilir ki, bu da öz növbəsində ümumilikdə seçki adminstrasiyasının fəaliyyətinin daha yaxşı təşkil olunmasına, seçkilərin daha effektiv idarə olunmasına, şəffaflığın və hesabtlılıq standartlarının daha da yüksəldilməsinə xidmət edir.

• Seçkiqabağı mühiti demokratikliyi, söz və mətbuat azdlığının təmin olunması, siyasi qüvvələrin fəaliyyəti üçün münbit şəraitin bərqərar olması ilə seçilmişdir. Belə ki, siyasl qüvvlərin, KİV-in fəaliyyəti üçün qanunvericiliyə müvafiq olaraq bütün zəruri şərait yaradılmışdır. Siyası qüvvələrin, KİV-in normal fəlaiyyət göstərməsinə maneə ola biləcək, siyası qüvvələrin seçkiyə hazırlığına əngəl olacaq, pozacaq hər hansı hadisə, meyl və təsirlər qeydə alınmamışdır.

• Seçkilərə hazırlıq və seçkilərin keçirilməsi ilə seçki adminstrasiyasının fəaliyyəti qənaətbəxş sayıla bilər. Seçki komissiyaları, seçki komissiyalarının üzvlərinin normal fəaliyyəti üçün bütün zəruri addımlar atılmış, əlverişli mühit yaradılmışdır. Seçki adminstrasiyası şəffaf, demokratik, azad, ədalətli seçkilərin keçirilməsi vəzifəsinin öhdəsindən gəlmək iqtidarındadır.

• Yeni qayda və mexanizmlər əvvəlki seçkilərlə müqayisədə mütərəqqi dəyişikliklər olaraq seçici sıyahılarının dəqiqiləşdirilməsi və yoxlanmasında tam şəffaflığa, demokratikliyə nail olmağa imkan yaratmışdır. Bu dəyişikliklər eyni zamanda seçici sıyahılarının dəqiqiləşdirilməsi və yoxlanmasında seçki adminstrasiyasının çevik, səmərəli fəaliyyət göstərməsi, əvvəllər müşahidə olunan problemlərin və bürokratik əngəllərin aradan qaldırılması istiqamətində mühüm naliyyət olmuşdur

• Prezidentliyə namizədlərin imzatoplama kampanıyası zamanı onların normal fəaliyyətinə ciddi şəkildə mane ola biləcək, onların bu istiqamətdə fəaliyyətinin ciddi şəkildə məhdudlaşdırılmasına səbəb ola biləcək hər hansı təsir, müdaxilə və təzyiq faktları qeydə alınmamışdır. Namizədlərin dəstək imzalrı toplamaları üçün onların hər biri bərabər imkanlara malik olmuşlar.

• Seçkiqabağı təşviqat və təbliğat kampaniyası müddətində ciddi maneə və əngəllrlə üzləşməmişlər. Namizədlərin heç biri təşviqat materiallarının yerləşdirilməsi, yayılması ilə bağlı qanunsuz müdaxilələr, əngəllər, maneələrlə üzləşməmişlər. Seçki kampaniyası dövründə sərbəst toplaşmaq hüquqlarının təmin edilməsi və həyata keçirilməsi ilə bağlı ciddi problemlər müşahidə olunmamışdır. Namizədləruin seçki qərargahları tərəfindən keçiriləm kütləvi aksiyalar zamanı sərbəst toplaşmaq hüquqlarının həyata keçirilməsini ilə bağlı problemlər qeydə alınmamışdır. Seçkiqabağı təşviqat və təbliğat kampaniyası dövründə namizədlər bərabər imkanlar yaradılmışdır.

# Tövsiyyələr

• Seçki komissiyalarının formalaşdırılması prinsipinin dəyişdirilərək onların siyasi partiyaların nəzarətindən çıxarılması və müstəqil şəxslərdən, peşəkar əsasında birpillǝlli test imtahnının nəticələri əsasında təşkil edilməsi;

• Seçki admistrasiyasının ən yuxarı pilləsi (MSK) səviyyəsində informmasiya-kommunikasıya texnologiyaları ilə təmin edilməsinə baxmayaraq dairə və məntəqə seçki komissiyaları bu vasitələrlə təmin olunmayıblar. Bu isə onların fəaliyyətində şəffaflığın və hesabatlılığın və ictimai məlumatlandırmanın lazımi səviyyədə olmamasına gətirib çıxarır. Bu çatışmamazlığı ardan qaldırmaq məqsədilə Seçki Məcəlləsinə müvafiq dəyişikliklərin edilməsi zəruridir;

• Fəaliyyətdə olan dövlət başçısının prezidentliyə namizəd olması bəzən, onun prezident kimi fəaliyyəti haqqında informasıyanın verilməsinin onun təbliğat kampaniyasının aparılması kimi qiymətləndirilir. Belə yanaşmalrın və müzakirələrin gələcəkdə aradan qaldırılması üçün qanunvericiliyə müvafiq zəruri dəqiqləşdirmələrin edilməsi məqsədəuyğun olardı;

• “Sərbəst toplaşmaq azdlığı haqqında” Qanunun tətbiqi praktikası üzərində nəzarət mexanizmlərinin gücləndirilməsi.